**TİPOLOGİYA 1. Müxtəlif biznes layihələrinin maliyyələşdirilməsi adı altında saxta sənədlər əsasında "birgünlük" şirkətlərə kreditlərin ayrılması və bu şirkətlərdən qiymətli kağızların alınması vasitəsilə iri kredit təşkilatına məxsus vəsaitlərin mütəşəkkil dəstə tərəfindən xarici ölkələrə köçürülərək leqallaşdırılması**

"A" ölkəsinin maliyyə bazarında fəaliyyət göstərən iri kredit təşkilatının vəzifəli şəxsləri müxtəlif xarici və ölkədaxili layihələrin maliyyələşdirilməsi adı altında saxta sənədlər əsasında onlara məxsus "birgünlük" (shell) şirkətlərə əsassız kreditlər ayıraraq və bu şirkətlərdən qeyri-likvid qiymətli kağızların alınması vasitəsilə kredit təşkilatına məxsus külli miqdarda pul vəsaitlərini sözügedən birgünlük şirkətlərin ofşor bank hesablarına köçürərək mənimsəmişlər.

Əmlakı və bank hesabında zəruri miqdarda vəsaiti, maliyyə dayanıqlığı və ödəniş qabiliyyəti olmayan, bir sözlə real fəaliyyət göstərməsinə əsaslı şübhələr olan "birgünlük" yerli şirkətlər bir sıra xarici ölkələrdə, o cümlədən benefisiarlara dair zəif eyniləşdirmə tələbləri olan yurisdiksiyalarda qeydiyyatdan keçmiş 60-dan çox şirkət (qanuni və eləcə də birgünlük şirkətlər) ilə irimәbləğli saxta kredit müqavilələri və qiymətli kağızların alqı-satqısına dair müqavilələr bağlayırlar. Bu şirkətlərin çox hissəsi "A" ölkəsinin iri kredit təşkilatının ("X") vəzifəli şəxslərinin göstərişləri əsasında məqsədyönlü olaraq yaradılmışdır. Eləcə də müvafiq kredit təşkilatı tərəfindən simvolik nizamnamə kapitalına malik və heç bir reytinqi olmayan şirkətlərdən likvid olmayan (açıq bazarda alınıb satıla bilinməyən) qiymətli kağızlar alınmışdır.

Qiymətli kağızların alqı-satqısı və kredit əməliyyatları nəticəsində riskli şirkətlərə normal biznes praktikasından aşağı faizlərlə ayrılmış (köçürülmüş) vəsaitlər müxtəlif xarici (və qismən də daxili) layihələrin maliyyələşdirilməsinə yönəldilmişdir.

Müvafiq kredit müqavilələri əsasında "A" ölkəsinin iri kredit təşkilatı bu şirkətlərə xarici ticarətin maliyyələşdirilməsi əsası ilə (akkreditivlər əsasında) aşağı faizli kreditlər ayırır və bu əsasda xarici şirkətlərə köçürmələr edir.

Eyni zamanda, "A" ölkəsinin iri kredit təşkilatının akkreditiv müqavilələri əsasında xarici real fəaliyyət göstərən şirkətlər də yerli "birgünlük" şirkətlərə kreditlər ayırır və onları həmin şirkətlərin əsasən xarici hesablarına, qismən də "A" ölkəsinin sözügedən "X" kredit təşkilatındakı hesablarına köçürür.

Yerli "birgünlük" şirkətlər əldə etdikləri xarici kredit vəsaitlərinin əsas hissəsini kredit adı altında ofşor zonalardakı "shell" şirkətlərinə, bir hissəsini isə "A" ölkəsi daxilində şəxsi biznes layihələrinin maliyyələşdirilməsi məqsədilə köçürür.

Son mərhələdə isə ofşor zonalardakı "birgünlük" şirkətlər kredit adı altında əldə etdikləri vəsaitləri geriyə iri real fəaliyyət göstərən şirkətə, bu şirkət isə vəsaitləri yerli "birgünlük" şirkətlərin xarici bank hesablarına köçürür.

Bu prosesdə həmçinin xarici real fəaliyyət göstərən şirkətdən cəlb olunmuş kreditlərin bir hissəsi "A" ölkəsinin "X" kredit təşkilatı tərəfindən açılmış yeni akkreditiv hesabına qaytarılır.

Beləliklə, kreditlər (akkreditivlər) əsasında maliyyələşən xarici ticarət əməliyyatlarında xarici ölkədəki real fəaliyyət göstərən iri şirkət malı “A” ölkəsinin birgünlük şirkətinə, bu şirkət isə əsas ofşor şirkətlərdən birinə satır, ofşor şirkət isə malı yenidən xarici ölkədəki real fəaliyyət göstərən iri şirkətə satır. Bu halda mal mübadiləsi “A” ölkəsinin hüdudlarından kənarda həyata keçirilir və “A” ölkəsinə heç bir halda mal gəlmir.

Qiymətli kağızlar vasitəsilə “A” ölkəsinin iri kredit təşkilatı tərəfindən şirkətlərin səhmlərinin alınması yolu ilə maliyyələşdirilmiş xarici layihələrdən qayıdan vəsaitlərin əsas hissəsi isə digər xarici layihələrə yönəldilərək vəsaitlərin böyük hissəsi mürəkkəb sxem əsasında “A” ölkəsindən yayındırlmış, yalnız kiçik bir hissəsi “A” ölkəsinin iri kredit təşkilatının kredit borclarının bir hissəsinin ödənilməsinə yönəldilmişdir.

**İstifadə olunmuş mexanizmlər**

- Kredit təşkilatları
- Birgünlük (şel) şirkətlər
- Ofşor şirkətlər
- İri şirkətlər

**İstifadə olunmuş alətlər**

- Kreditlər (akkreditivlər)
- Qiymətli kağızlar
- Saxta kredit müqavilələri
- Bank köçürmələri

**İstifadə olunmuş üsullar**

- saxta alqı-satqı müqavilələrinin bağlanması;
- vəsaitlərdən real fayda əldə edən şəxsləri gizlətmək məqsədilə “şell” şirkətdən istifadə;
- ölkədaxili bank hesablarından ofşor bank hesablarına köçürmələr edilməsi;
- müqavilə sənədlərinin saxtalaşdırılması və ya onlarda düzgün məlumatın əks olunmaması;
- “birgünlük” yerli və ofşor firmaların qeydiyyatı və onlar vasitəsilə əməliyyatların aparılması;
- vəsaitlərinin izinin itirilməsi üçün iri dövriyyəyə malik xarici real fəaliyyət göstərən şirkətdən istifadə olunması;
- tranzit hesablardan istifadə;
- nominal şəxslərin (yaxınların və qohumların) cəlb olunması.

**İstifadə olunmuş metodlar (indikatorlar)**

- Real fəaliyyət göstərməsinə (əmlakı və bank hesabında zəruri miqdarda vəsaiti olmayan, maliyyə dayanıqlığı və ödəniş qabiliyyəti olmayan) əsaslı şübhələr olan "birgünlük" yerli şirkətlərlə biznes münasibətlərinin qurulması və onlara kreditlərin ayrılması;
- Əməliyyatlarda real fəaliyyət göstərməsinə şübhələr olan xarici şirkətlərin (o cümlədən, "shell" şirkətlərin) iştirak etməsi;
- Vəsaitlərin böyük hissəsinin kreditlərin təyinatlarından kənar azgəlirli (və ya gəlirsiz) layihələrə yönəldilməsi;
- Alqı-satqı müqaviələri əsasında malın ölkəyə idxal olunmaması;
- Normal biznes və bazar praktikasından aşağı faizlərlə kreditlərin ayrılması və qeyri-likvid qiymətli kağızların alınması;
- Yeni yaradılmış və müvafiq biznes sahəsində təcrübəsi olmayan şirkətlə iriməbləği müqavilələrin bağlanması və bank hesabına iriməbləğli köçürmələrin edilməsi;
- Şirkətlərin fəaliyyət profillərinə uyğun olmayan əməliyyatlar həyata keçirməsi;
- Əməliyyatların həyata keçirilməsi sxeminin iqtisadi cəhətdən rasional olmaması;
- Kreditlərin böyük hissəsinin qaytarılmamasına baxmayaraq, kredit təşkilatı tərəfindən yeni kreditlərin ayrılması.

## Kredit təşkilatının kredit və qiymətli kağızlar əsasında ayırdığı vəsaitlərin leqallaşdırılması sxemi

